

# Arvadla futbola baxmaq

Hekayə

Qəşəm Nəcəfzadə

Dünyanın ən qəliz məsələlərindən biri də budur ki, futbola baxmaq istəyəsən, pult da arvadın əlində ola, o da seriala baxmaq istəyə. Gümanın ona gəlir ki, arvadı aparıb bir gecəlik dədəsi evinə qoyasan, 3 şüşə pivə alasan, bir az da noxud, içəsən bala-bala, baxasan futbola, amma nə qədər eləyəsən arvad da dədəsi evinə getməyə.

Əlacım ona qalır ki, futbolu arvada başa salam, onu da salam öz günümə. Gördüm ki, futbolu başa salmağın özü də qəliz məsələdir. Metodumu sadələşdirib keçdim başqa bir dərsə. Bilirəm ki, yoldaşıma nə təsir edə bilər, nəyi tez öyrənə bilər, ona görə də iri bir ağ kağız götürdüm. Ortasında geniş bir dairə çəkdim. Dairəni iki yerə böldüm.

Dedi:

- Bu, nədir?

Dedim:

- Azərbaycandır.

- Bəs ikiyə niyə böldün?

Dedim:

- Mən bölməmişəm, 1828-ci ildə Türkmənçay müqaviləsində ruslarla farslar bölüb.

- İndi biz hardayıq?

- Bu balaca hissədə.

- Bəs o tərəf?

- O tərəf Cənubi Azərbaycandır, mərkəzi şəhər - Təbriz. 30 milyon soydaşımız. Əsl türk. Farsların zülmü altında inildəyirlər.

Gördüm yoldaşım kövrəlir. Keçdim öz tərəfimizə.

- Şimali Azərbaycan, paytaxtı Bakı şəhəri. Cəmi 9 milyon, 9 milyonun biri sən, bir mən, ikisi də uşaqlarımız.

Artıq futbol başlayıb. Oyunçuları gözdən qoymuram. Ciddi nəzarətim həmişəki kimi öz yerindəndir. Yoldaşım lap kövrəlir.

- Bəs biz buna necə dözürük? Niyə ürəyimiz partlamır? Niyə üsyan eləmirik? Ayağa qalxmırıq? Niyə birləşmirik?

Yoldaşım televizorun pultunu tulladı kreslonun üstünə, başladı için-için ağlamağa.

- Özü də çox hissəmiz o tərəfdə qalıb. Az bir hissə biz tərəfə düşüb.

Pultu götürüb televiziyanın səsini artırdım.

O saat işarə elədi ki, çevir seriyala.

Tez vərəqi götürüb özümüz tərəfdəki dairənin başından bir az kəsib ayırdım.

Tez soruşdu:

- Bu, nədi belə?

- Dərbənd.

- Onu kim alıb bizdən?

- Ruslar.

Tez başladı ağlamağa.

- Uy dad, bizim millətin başına nə oyunlar gətiriblər. Bəs ürəyimiz niyə partlamır?

Elə bu zaman məndən ürək dərmanı istədi. 25 damcı korvalol verdim. Bir az dəsmalla mehlədim, özünə gəldi. Gözüm futboldadır, artıq serial-zad yaddan çıxıb.

Yəni vərəqi götürüb ayaq tərəfdən bir azca kəsdim, kəsdim, deyəndə cız çəkib dairədən ayırdım.

Dedi:

- Bu, nədir?

- Göyçə.

- Onu kimi alıb?

- Ermənilər.

Yoldaşım bu dəfə elə ağladı ki, o biri otaqdan uşaqlar səsinə gəldilər.

- İlahi bizi bölə-bölə nə günə qoyublar?

Tez dairədən yenə bir az kəsib ayırdım.

Dedi:

- O, nədir?

Dedim:

- Zəngəzur qəzası.

- Onu kim alıb?

- Ermənilər.

Artıq həyat yoldaşım uduzan komandanın azerkeşi kimi ağlamaqda idi. Hesab 2:0 mənim komandamın xeyrinədir.

Yenə qələmi götürüb kiçik bir ərazini də ayırdım.

Dedi:

- Bu, nədir?

Dedim:

- Qərbi Azərbaycan.

- Onu kim alıb?

- Ermənilər.

Bu dəfə lap qəşş elədi. Bizi parça-parça edənlərə qarğıdı, başına döydü. Oyy vətənim, - dedi.

Mənim gözüm artıq futboldadı. Komandam sürətlə irəliləyir. Elə bu zaman hakim oyundan kənar vəziyyəti göstərir.

Yoldaşımın bənizi avazıyıb. Kədər-qəm içindədir. Anamı yanına çağırır. Vərəqi ona göstərir. Anam da ona qoşulur:

**- Evi yıxılan balam, hey,**
**Vətənim hey, obam hey.**

Yoldaşım vərəqdəki kiçik dairələrə əlini çırpa-çırpa deyir:

- Bu Təbriz, bu Göyçə, bu Dərbənd, bu Zəngəzur

Anam artıq dillə ağlayır:

**- Arazı ayırdılar,**
**Qumuynan qayırdılar.**
**Mən səndən ayrılmazdın,**
**Zülmnən ayırdılar.**

Gözümü futboldan çəkmirəm. Mənim sevimli komandam yaşıl geyimdədir. Gərgin vəziyyət yaranır. Yenə küncdən zərbə.

Anamın səsi otağı götürüb. Artıq Təbrizi, Dərbəndi, Zəngəzuru, Göyçəni oğlanları kimi ağlayır. Elə bil müharibəyə gedib qayıtmayıblar. Bir azdan aralığa sükut çökür. Yoldaşım və anam yas içindədilər.

Yoldaşım deyir:

- Sənin dediklərini atama deyə bilmərəm, ürəyi xəstədir. Bəlkə, anama deyəm.

Elə bu zaman anam üzünü mənə tutdu:

- Kanalı ATV-yə çevir, seriala. Görək arvadına xəyanət edən kişinin axırı nətər oldu?

Yoldaşım dinmir.

Elə bu zaman vərəqi əlimə götürüb öz tərəfimizdən bir az da kəsdim.

Yoldaşım dedi:

- Bura haradır?

Dedim:

- Qarabağ.

- Kim alıb bizdən,

- Ermənilər.

Yoldaşım elə nalə çəkdi ki, elə bil Qarabağ problemini yenicə eşidirdi. ATV-yə baxmaq anamın yadından çıxdı. Qoşuldu gəlininə. Artıq bir-birini qucaqlayıb ağlayırdılar.

Vərəq stolun üstə idi. Parça-parça olmuş Azərbaycanı anam elə dillə ağlayırdı ki, futboldan gözümü çəkməyə məcbur olurdum.

Artıq mənim komandam hesabı artırıb. Hesab artıq 3:0-dır.

Budur, yenə mənim komandam sürətlə irəliləyir, yenə aut. Ən zəhləm gedən şey futbolda autdur. Oyunu ləngidir. Qələbə üçün heç bir əhəmiyyəti yoxdur.

Stolun üstündəki vərəqi anam öpüb gözünün üstə qoyurdu. Sinəsinə sıxırdı. Azərbaycanım, - deyirdi.

Əslində anam da, yoldaşım da Azərbaycanın zaman-zaman bu cür hissələrə parçalandığını bilirdilər. Dörd nəfər qohumum Qarabağda şəhid olmuşdur. Elə bil dərdlərimizi bu qədər yaxından görməmişdilər. İkiyə bölünmüş Azərbaycanın xəritə esgizini bilmirdilər. Xətlərlə ayırdığım ərazilər onlar üçün canlı idi.

Futbol sona çatdı. Hesab: 3:0 mənim komandamın xeyrinə. Qələbə bizimlə olsa da, vərəqə baxa-baxa əhvalım pozulurdu.

Birdən təzə bir vərəq götürdüm. Üstündə iri bir dairə çəkdim. Ətrafında kiçik hissələr cızmadım. Elə üstünə Bütöv Azad Azərbaycan yazdım.

Anam, yoldaşım elə sevinirdi ki, gəl görəsən. Elə bilirdilər, hər şey mənim əlimdədir.